MÜSİAD

AZƏRBAYCAN

# KARZI HASEN

MÜSİAD AZƏRBAYCAN,
Karzı Hasen ilə
Mədəniyyətimizin Bir Dəyərinə
Yenidən Həyat Verir

MÜSİAD Azərbaycan üzvləri arasındakı yardımlaşma və həmrəylik mədəniyyətinin korporativ bir mexanizmə çevirmək və sahibkarlarımızın biznesini asanlaşdırmaq düşüncəsi Fondun meydana gəlməsinə vəsilə olmuşdur.

Fond, mədəniyyətimizin gözəl dəyərlərindən biri olan “Karzı Hasen” qavramını və prinsiplərini bu günkü biznes həyatında aktuallaşdıraraq, yardımlaşma və həmrəylik mədəniyyətini korporativləşdirməkdədir.

Karzı Hasen Fondunun təməl hədəfi borc münasibətini dinimizn əmr etdiyi şəkildə tətbiq edə bilmək və bunu tətbiq edərkən qurumumuzun cəmiyyətin həyatında aktiv olarak sistemləşməsini təmin etməkdir.

Bunun sayəsində biznesdə ehtiyat maliyyə həcmini artıraraq, sahibkarın çətin günlərində həmrəylik nümayiş etdirməsini və biznesin üzərindəki izafi yüklərdən biri olan faiz yükünü Karzı Hasen mexanizmi ilə aradan qaldırmağı məqsəd olaraq qarşıya qoymaqdadır.

# “KARZI HASEN” NƏDiR?

Karzı Hasen **gözəl borc** deməkdir. Müqəddəs Kitabımız Qurani Kərimdə 5 fərqli surədə - Müzzəmmil surəsi 20-ci ayə, Bəqərə surəsi 245-ci ayə, Maidə surəsi 12-ci ayə, Təğabun surəsi 17-ci ayə, Hədid surəsi 11 və 18-ci ayələrdə bəhs olunan Karzı Hasen, Allah üçün verilən gözəl borc kimi qeyd olunur. Tarix boyu mədəniyyətimizin köklərində əsaslı bir yerə sahib olan, hal-hazırda isə korporativ formada tətbiq edilməyən Karzı Hasen, ictimai bir dəyərdir. Etibarlı əllərdə toplanan və ədalətlə paylanan Karzı Hasen, deqrodasiyaya uğramış ictimai həyatın islah olmasına vəsilə ola bilən bir mexanizmdir.

Karzı Hasen, ehtiyacı olan şəxsə haramlardan uzaq durması və harama bulaşmaması üçün ehtiyacını qarşılayacaq məbləği faizsiz olaraq və sırf Allah rizasını qazanmaq üçün borc verməkdir. Günümüzdə həyatımızın hər sahəsində mövcud olan faizli borclardan sıyrılaraq halal yollardan biznesin inkişaf etdirilməsi üçü Karzı Hasenin təkmilləşdirilməsi və dəstəklənməsi zərurətindən irəli gələrək MÜSİAD Azərbaycan Karzı Hasen Fondunu qurmuşdur.

# MÜSİAD AZƏRBAYCAN KARZI HASEN FONDUNUN MƏQSƏDİ NƏDİR?

Karzı Hasen Fondu MÜSİAD Azərbaycan-ın üzvləri arasında yardımlaşma və həmrəylik şüuru və mədəniyyətini formalaşdırmaq üçün qurulmuşdur. Təməl hədəfi Allahın əmr etdiyi bu borcu tətbiq edə bilmək və bunu edərkən qurumumuzun ictimai həyatda aktiv olaraq sistemləşməsini təmin etməkdir. Bununla yanaşı vəfat edən üzvümüzün ailə üzvlərinə yardım etmək, ehtiyaclarını qarşılayaraq onlara dəstək olmaq da məqsədlərimizdəndir.

# Karzı Hasen tərkibində 3 fond təsis edilmişdir.

ƏSAS
BORC
FONDU

FƏRDİ
BORC
FONDU



SOSİAL
YARDIM
FONDU

# KARZI HASEN TƏRKİBİNDƏ HANSI FONDLAR VAR?

**Karzı Hasen Fondu** tərkibində **Əsas Borc Fondu, Fərdi Borc Fondu və Sosial Yardım Fondu mövcuddur.**

**Əsas Borc Fondu,** üzvlərin əvəzsiz olaraq ödədiyi üzvlük haqlarının 95%-i və ianələrin 70%-i hesabına formalaşır. Bu fonddakı pul Fond üzvünün ehtiyacını qarşılamaq üçün ona borc olaraq verilir. Fonddan borc alan üzv, Fondun idarə heyəti tərəfindən müəyyən olunan müddətin sonunda borcu geri qaytarmalıdır.

**Fərdi Borc Fondu,** Fond üzvü olan və ya olmayan şəxslərin Fonda verdiyi borc əsasında formalaşır. Fonda mütəmadi olaraq ödənilən üzvlük haqları və ianələr bu fondda toplanılmır. Fond fərdi qaydada fonda verilən borclardan Fondun məqsədləri istiqamətində istifadə edir və vaxtı gələndə həmin məbləği borcu vermiş şəxsə geri qaytarır.

**Sosial Yardım Fondu,** Fonda ödənilən ianələrin 25%-i özündə cəmləyir. Bu fonddan üzvlərə şəxsən və onların vəfatından sonra ailə üzvlərinə əvəzsiz maddi yardım edilir. Yəni, edilən maddi yardımlar faydalanan şəxslər tərəfindən geri qaytarılmır.

# KİMLƏR FAYDALANA BİLƏR?

## KARZI HASEN FONDUNDAN

İllik üzvlük haqqını tam ödəyən üzvlər

## SOSİAL YARDIM FONDUNDAN

Şəxsi ehtiyacı olan üzvlər, onlar vəfat etdikləri halda isə həyat yoldaşı və uşaqları

## FƏRDİ BORC FONDUNDAN

Ehtiyacı olan üzvlər bu fondda toplanan puldan Əsas Borc Fondunun şərtlərinə uyğun faydalana bilərlər

Karzı Hasen Fondundan yalnız Fondun üzvləri faydalana bilər.

# FONDA KİMLƏR ÜZV OLA BİLƏR?

MÜSİAD Azərbaycan üzvü olan bütün üzvlərimiz eyni zamanda Fonda üzv ola bilərlər. Fonda üzvlük könüllüdür. MÜSİAD Azərbaycan üzvü olmayanlar Fonda üzv ola bilməzlər. Fonda üzv olmaq üçün üzvlüyə müraciət ərizəsi ilə Fondun idarə heyətinə müraciət etmək lazımdır.

# İLLİK ÜZVLÜK HAQQI

**350 ₼**

İllik üzvlük haqqı Fondun idarə heyəti tərəfindən dəyişdirilə bilər.

# ÜZVLƏRİN ÖHDƏLİKLƏRİ NƏLƏRDİR?

Fonda üzv olan şəxslər üzvlük haqlarını vaxtında ödəyəcəklərini, Fondun təsis məqsədlərinə uyğun olmayan davranışdan çəkinəcəklərini öhdələrinə götürürlər.

# ÜZVLÜK ŞƏRTLƏRİ

- ☑ MÜSİAD Azərbaycan üzvü olmaq
- ☑ Üzvlüyə müraciət ərizəsini tərtib etmək
- ☑ Fondun İdarə Heyətinə müraciət etmək
- ☑ Üzvlük haqqını ödəmək

**Karzı Hasen** Fondu həmrəylik ruhunu və başqasının dərdini özünə dərd etmə anlayışını günümüzdə yaşadan qiymətli bir təsisatdır. Bunu ən gözəl şəkildə yaşatmaq, mədəniyyətimizə, inancımıza və gələcəyimizə borcumuzdur.

---

MÜSİAD Azərbaycan
İdarə Heyətinin Sədri
**Abdurrahman Uzun**

MÜSİAD
AZƏRBAYCAN
Abbasqulu Ağa Bakıxanov 48C, Nəsimi rayonu,
Bakı / Azərbaycan AZ1007 / Telefon: +994 12 440 06 90
info@musiad.az